1_Layout 1 15.01.2025 10:55 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 1 (689)

16 yanvar 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# PRAQMATİK VƏ DÜŞÜNÜLMÜŞ SİYASƏT

## Prezident İlham Əliyevin yol xəritəsi sülhə və inkişafa xidmət edir

**"Azərbaycan" qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu "Praqmatik və düşünülmüş siyasət" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



Bu gün Azərbaycanın tutduğu yol, təklif etdiyi gələcək hər kəsin maraqlarına xidmət edir. Mürəkkəb, ziddiyyətlərlə dolu dünyamızda dövlətin belə bir inkişaf xəttini qoruyub saxlamaq, yaranmış reallıqları fürsətə çevirmək, toqquşan maraqlar arasında tarazlığı möhkəmləndirmək ölkə rəhbərinin qətiyyəti, əzmi və düşünülmüş siyasətindən asılıdır. Digər tərəfdən, dövrünün bütün qüdrətli liderlərinin uğurunu şərtləndirən əsas cəhətlərdən biri də məhz strateji xətt, zamanın axarını duymaq bacarığı və gələcəyə hazır olmaq əzmidir.

Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibə 2024-cü ildə əldə olunmuş nəticələrin dəyərləndirilməsi, eyni zamanda perspektivlərə dair inamlı bir yol xəritəsinin təqdimatı baxımından böyük maraqla qarşılandı. Müsahibədə Azərbaycanın son illərdə əldə etdiyi mühüm nailiyyətlər, problemlər və onların həlləri, müasir dünyamızda ölkəmiz qarşısında duran əhəmiyyətli çağırışlar dərindən və geniş şəkildə təhlil edilir. Cənab İlham Əliyevin vurğuladığı əsas məqamlar arasında Azərbaycanın iqtisadi inkişafının, ərazi bütövlüyünün bərpasından sonra yaranmış yeni tarixi reallıqların, sosial sahədə atılan addımların və ölkəmizin beynəlxalq mövqeyinin gücləndirilməsinin ön planda olduğunu görürük.

### Gələcək inkişafa zəmin yaradan möhkəm təməllər

Bu gün Azərbaycanın inkişafının ən mühüm istiqamətlərindən biri ölkənin getdikcə güclənən iqtisadiyyatıdır. Prezidentin müsahibəsində qeyd edilən əsas mövzular sırasında ölkənin ümumi inkişafı və əldə olunan iqtisadi uğurlar xüsusi vurğulandı.

Əldə edilən iqtisadi uğurlar, bu nailiyyətlərin yaratdığı imkanlar Azərbaycanın hərbi gücünün də getdikcə artması üçün lazımi şəraiti təmin edir. Ölkəmizin müdafiə qüdrətinin ən yüksək səviyyədə olması bir tərəfdən geosiyasi reallıqların, digər tərəfdən bölgəmizdəki ümumi vəziyyətin diktəsidir. Bunu zəruri edən əsas səbəblərdən biri də uzun illər Azərbaycan torpaqlarını işğal altında saxlamış Ermənistanın Vətən müharibəsindəki biabırçı məğlubiyyətindən sonra revanşizm meyillərinə qapılması, silahlanma yarışına qatılmasıdır. Prezident İlham Əliyev müsahibəsində bunu narahatedici məqam kimi qiymətləndirərək, Azərbaycanın müdafiə qabiliyyətini gücləndirmək məqsədilə hərbi büdcəsini rekord həddə, 8,4 milyard manata yüksəltdiyini açıqladı: "Mən bunu artıq bir dəfə demişəm: biz Qarabağın və Şərqi Zəngəzurun bərpasına 4 milyard, hərbi və təhlükəsizlik məsələlərinin həlli üçün 8,4 milyard manat vəsait xərcləyirik. Bu, tam fərqli ola bilərdi. Çünki Ermənistanın silahlanma yarışı, bizim də maliyyə resurslarımızı əsas məsələlərdən başqa hərbi məsələlərə cəlb etməyə məcbur edir. Mən onu da bildirmişəm ki, Ermənistan silahlanma yarışında bizimlə rəqabət apara bilməz".

### Ermənistan ziyankarlığını davam etdirir: təhdidlərə qarşı qətiyyət

Ermənistanın genişmiqyaslı silahlanma kampaniyası Azərbaycan Prezidentinin də bəyan etdiyi kimi, ümumilikdə bölgəmiz üçün növbəti təhdid mənbəyidir.

Cənab İlham Əliyev bir daha vurğuladı ki, Cənubi Qafqaz sülh, əmin-amanlıq, əməkdaşlıq bölgəsi olmalıdır. Ermənistanın genişmiqyaslı və sürətli silahlanması, öldürücü silahların tədarükü mümkün sülhü poza bilər. Azərbaycan Prezidenti onu da qətiyyətlə bəyan etdi ki, ölkəmiz bu məsələlərdə sadəcə, tamaşaçı rolunda olmayacaq. Otuz illik işğal, dağıntılar, Qarabağın, Şərqi Zəngəzurun viran qoyulması, Xocalı soyqırımı, bir milyon insanımızın Ermənistanın ucbatından qaçqın, köçkün vəziyyətində yaşaması bizim xatirimizdən heç vaxt silinməyəcək. Biz istəyirik ki, artıq müharibə səhifəsi bağlansın: "Ancaq görürük ki, Ermənistanın həm özü, həm də onun yeni havadarları bunu istəmirlər. Onlar revanşist fikirlərlə yaşayırlar və Ermənistan faktiki olaraq bölgə üçün bir təhdid mənbəyidir".

### Makron Fransasının acizliyi

Ermənistanın hazırkı hakimiyyətinin təəssüf doğuran qətiyyətsizliyi, xarici havadarlarından asılılığı və onların, xüsusilə Fransanın əlində bir alətə çevrilməsi bütöv bölgəmiz üçün təhlükə mənbəyidir. Bu gün özünü Nikol Paşinyanın himayədarı kimi göstərən Makron Fransasının boş geosiyasi kaprizləri təkcə Azərbaycana deyil, qonşu Gürcüstana qarşı da yönəlib. Bir bölgənin üç dövlətindən ikisinə münasibətdə aqressivcəsinə yüklənmiş və regionu təmsil etməyən dövlətin Cənubi Qafqazın işlərinə qarışmağa rəsmi İrəvan tərəfindən şəraitin yaradılması qəbuledilməzdir. Dövlətimizin başçısı qətiyyətlə bildirdi ki, İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri Ermənistanda çox ciddi qəbul edilməlidir.

### Ölkəmizin yaratdığı yeni reallıqlar

Müsahibədə xüsusi qeyd edildi ki, Azərbaycanın 2024-cü ildəki ən mühüm uğurlarından biri də Qazax rayonunun 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən işğal olunmuş dörd kəndinin azad edilməsidir. Ən əhəmiyyətli məqam isə bundan ibarətdir ki, Azərbaycan bunu diplomatik yolla, bir güllə belə atmadan həyata keçirdi. Müsahibədə xüsusi qeyd edildi ki, bu kəndlər haqqında dövlətimiz heç vaxt öz mövqeyindən bir addım belə geri çəkilməmişdi. Bu kəndləri biz unutmamışdıq. Birinci mərhələdə Qarabağın və Şərqi Zəngəzurun böyük hissəsini 2020-ci ildə Vətən müharibəsində işğalçılardan azad etdik. Qalan hissə 2023-cü ildə antiterror əməliyyatı nəticəsində təmizləndi və Azərbaycan öz dövlət suverenliyini bərpa etdi. Ötən il isə Qazax rayonunun dörd kəndini geri aldıq. "Düşünürəm ki, Ermənistanı könüllü surətdə, belə desək, könüllü-məcburi şəkildə bu kəndləri qaytarmağa vadar edən bir neçə amil var. Birincisi, Vətən müharibəsi və onun nəticələridir. İkincisi, antiterror əməliyyatı. Zənnimcə, o, erməni rəhbərliyinin onlarla birlikdə Azərbaycana qarşı duracağı ilə bağlı bütün illüziyaları artıq yox etməli idi. Mənim Qazaxın dörd kəndi ilə bağlı son tələbim Ermənistanın baş naziri qarşısında təxminən bir il əvvəl qoyulmuşdu, ötən ilin fevralında. Bu mövzu İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra daim gündəlikdə olub" - dövlətimizin başçısı vurğuladı.

Bu faktın özü tarixi bir həqiqətdir ki, Qazaxın dörd kəndinin azadlığı son dörd ildə Azərbaycan-Ermənistan münasibətlərində baş vermiş hadisələrin məntiqi davamı kimi mümkün oldu. Cənab İlham Əliyevin də qeyd etdiyi kimi, bunlar baş verməsəydi, Ermənistan heç vaxt öz xoşu ilə bu kəndləri bizə qaytaran deyildi. Ermənistan ölkəmizin siyasi, hərbi gücünü dərk edərək bu kəndləri geri qaytarmağa faktiki məcbur qaldı.

### Milli inkişafı təmin edən siyasət

Müsahibədə 2024-cü ildə Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi, ölkəmizin qlobal nüfuzunun artması barədə də fikirlər xüsusi vurğulandı. Ötən il Azərbaycan COP29 kimi əhəmiyyətli bir tədbirə - müstəqillik tariximizin ən böyük beynəlxalq tədbirinə evsahibliyi etdi. 197 ölkədən 76 min iştirakçının qatıldığı, 80 dövlət və hökumət başçısının iştirak etdiyi bu tədbir ilk növbədə ölkəmizin qlobal liderlik mövqeyini təmin etdi. Konfransın uğurla keçməsi, bütün dünya üçün tarixi nəticə ilə tamamlanması Azərbaycana qarşı aparılan böhtan kampaniyasına, qərəzli məqsədlərlə edilən təzyiqlərə qarşı da tutarlı cavab oldu. Həmçinin ölkəmiz bu qlobal tədbirlə dünya ictimaiyyətinə ətraf mühit məsələlərindəki nailiyyətlərini təqdim etmək fürsəti qazandı və bu fürsətdən effektiv şəkildə istifadə etməyi bacardı.

Bu gün yeni dünya nizamı formalaşdırılır. Azərbaycan isə bu prosesin başlanğıcındadır. Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində bir çox məsələyə münasibəti Azərbaycan liderinin dünyaya ünvanlanmış növbəti qətiyyətli mesajıdır. Dövlət başçısının həm ölkəmizlə və regionumuzla bağlı hadisələrə, həm də qlobal xarakterli proseslərə reaksiyasının ana xətti bundan ibarətdir: biz ətrafımızda və daha geniş coğrafiyada izlənən proseslərin fəal iştirakçısıyıq, eyni zamanda müstəqilliyimizə hər hansı formada təhdid olan, yaxud olacaq amilləri neytrallaşdırmaq iqtidarındayıq. Qeyri-sabit, dəyişkən müasir dünyadakı proseslərə bu formatda yanaşmanı yalnız, sözün əsl mənasında, müstəqil olan dövlətin güclü lideri sərgiləyə bilər. Azərbaycan Prezidentinin dediyi kimi, zəif dövlətlər olmur, zəif liderlər olur. İlham Əliyev güclü dövlətin güclü lideridir!

# Daxili işlər naziri Vilayət Eyvazov İsmayıllı rayonunda növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov yanvar ayının 7-də və 8-də İsmayıllı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə İsmayıllı rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra İsmayıllı Rayon Polis Şöbəsində İsmayıllı, Göyçay, Ağsu, Şamaxı, Qobustan şəhər və rayonlarından qəbula gələn 294 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Vətən müharibəsinin 23 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 196 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 15.01.2025 11:42 Page 1



# DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Yanvarın 13-də Daxili Qoşunların Baş İdarəsində “Daxili Qoşunların 2024-cü ildə xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələri haqqında” Hərbi Şuranın iclası keçirilib.

İclasda giriş sözü ilə çıxış edən Hərbi Şuranın sədri, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov diqqətə çatdırıb ki, 2024-cü ildə Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur qurumlarından biri olan Daxili Qoşunlar tərəfindən qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqları, habelə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı müəyyən edilmiş vəzifələr layiqincə və keyfiyyətlə icra olunub. Daxili Qoşunların komandanı iclas zamanı 2025-ci ilin yanvar ayının 29-da keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar, həmçinin qarşıda duran digər mühüm vəzifələrin də müzakirə olunacağını bildirib.




İclasın gündəliyi elan edildikdən sonra daxili qoşunlar komandanının 1-ci müavini-qərargah rəisi general-mayor Tofiq Hüseynov məruzə ilə çıxış edib.

Qeyd olunub ki, ötən il ərzində mühüm dövlət, ictimai-siyasi və idman tədbirləri zamanı Daxili Qoşunların şəxsi heyəti polis əməkdaşları ilə birlikdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində fəal iştirak edib, müəyyən edilmiş tapşırıqlar layiqincə və keyfiyyətlə yerinə yetirilib.

Polis əməkdaşları ilə birgə işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunması, həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin mühafizəsi, terror, təxribat və digər qanunazidd fəaliyyətin qarşısının alınması, giriş-çıxışın xüsusi rejiminin tətbiq edilməsi və digər mühüm vəzifələrin yerinə yetirilməsi üzrə qarşıya qoyulmuş tapşırıqların icrası həyata keçirilib.



Ötən il ərzində qoşunların şəxsi heyəti BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), “Formula-1 Qatar Airways Azərbaycan Qran-Pri” yarışının, futbol oyunlarının və digər mühüm beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasına cəlb edilib. Bu tədbirlər zamanı, həmçinin işğaldan azad olunmuş ərazilərdə hərbi hissələrin istehkamçı yarımqrupları tərəfindən onlara həvalə edilmiş aidiyyəti xidməti-döyüş tapşırıqları uğurla yerinə yetirilib.



2024-cü il ərzində qoşunlarda döyüş təlimi müvafiq direktivin tələbləri əsasında keçirilib, hərbi qulluqçuların komandir, ixtisas, atəş və fiziki hazırlıq səviyyəsinin təkmilləşdirilməsi təmin olunub. Daxili Qoşunların hərbi hissələri və ərazi polis orqanlarının birgə fəaliyyətinin və koordinasiyasının təkmilləşdirilməsi məqsədilə birgə xüsusi-taktiki təlim-məşqləri keçirilib.

Bununla yanaşı, məruzədə 2024-cü il ərzində Daxili Qoşunların şəxsi heyəti ilə tərbiyə işinin təşkilinin və hərbi intizamın vəziyyətinin qənaətbəxş olduğu vurğulanıb. Bildirilib ki, qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsi, hadisələrin və neqativ halların qarşısının alınması, komandir və rəislərin şəxsi nümunəliyinin təmin edilməsi, hərbi qulluqçuların ictimai-siyasi hazırlıq üzrə biliklərinin artırılması diqqətdə saxlanılan məsələlərdən olub.

Həmçinin ötən il ərzində Daxili Qoşunlarda maddi-texniki bazanın möhkəmləndirilməsi ilə bağlı tədbirlərin ardıcıllıqla davam etdirilməsi, şəxsi heyətin kazarma-məişət şəraitinin, o cümlədən işğaldan azad olunmuş ərazilərdə xidmət aparan hərbi qulluqçuların yerləşmə şəraitinin daha da yaxşılaşdırılması məqsədilə zəruri tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılıb.

İclasda bir sıra hərbi hissə komandirləri və hərbi hissə komandirlərinin 1-ci müavini - qərargah rəislərinin mövcud vəziyyət, diqqətçəkən nöqsan və çatışmazlıqların yaranma səbəbləri barədə hesabat-çıxışları dinlənilib. Çıxışlar zamanı qeyd olunub ki, ümumilikdə hərbi hissələr qarşıya qoyulmuş tapşırıqlardan irəli gələn vəzifələri tam həcmdə yerinə yetiriblər.

Çıxışlardan sonra daxili qoşunların komandanı cari ildə qarşıda duran vəzifələrlə əlaqədar, həmçinin yanvar ayının 29-da keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verib.

Sonda iclasa yekun vuran general-leytenant Ş.Məmmədov Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyətinin bundan sonra da xalqa və dövlətə sadiqliyini nümayiş etdirərək ləyaqətlə xidmət edəcəyinə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısına cavab olaraq, daxili işlər nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri layiqincə yerinə yetirəcəyinə, polis orqanlarının əməkdaşları ilə birgə ölkədə ictimai asayişin və sabitliyin keşiyində mətinliklə dayanacağına əminliyini ifadə edib, hərbi qulluqçulara fəaliyyətlərində uğurlar arzulayıb.

**Mətbuat xidməti**

# 2025-ci il Azərbaycanda “Konstitusiya və Suverenlik İli” elan edilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımızın milli kimliyini, mübarizə ruhunu qoruyub saxlaması, öz ideallarına həmişə sadiq qalması və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etməsi qeyd olunub.




1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarıb, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmayıb, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmayıb.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alınıb, ictimai-siyasi sabitlik təmin edilib və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yaranıb. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynayıb.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilib. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməyib. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilib, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilib.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olunub. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli, 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilib.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Beləliklə, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü nəzərə alınaraq, 2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilib.

Bununla yanaşı, sərəncamın 2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına “Konstitusiya və Suverenlik İli” ilə bağlı müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb.

**Mətbuat xidməti**

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI İLƏ HƏR ZAMAN ÖNDƏ OLAN BÖLMƏ

Hərbi hissələrdə fəaliyyət göstərən xüsusi təyinatlıların silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.



16075 saylı hərbi hissənin komandiri polkovnik İlkin Gözəlov xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirib ki, dəstə hər an qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməyə hazırdır. Hərbi qulluqçulardan kifayət qədər fiziki güc və möhkəm iradə tələb edən təlimlərdə iştirak edən xüsusi təyinatlılar yüksək peşəkarlıq nümayiş etdirirlər. Qeyd edim ki, dəstə 2024-cü ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə hərbi hissənin bölmələri arasında 1-ci yerə layiq görülüb.





Dəstə komandiri polkovnik-leytenant Anar Rizvanov hava şəraitindən asılı olmayaraq, təlim və məşğələlərin davamlı olaraq keçirildiyini qeyd edərək, şəxsi heyətin üzərinə düşən vəzifələri məsuliyyətlə icra etdiyini vurğuladı.

Polkovnik-leytenant A.Rizvanov bildirdi ki, şəxsi heyət gündəlik fəaliyyətini daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edir: “Əsas diqqət atəş və fiziki hazırlıq ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Dözümlülüyü artırmaq məqsədilə fiziki hazırlıq məşğələsində qısa və uzaq məsafələrə qaçış, həmçinin maneələr zolağının keçilməsi məşq etdirilir. Təlim və məşğələlərin müvafiq plana əsasən müntəzəm olaraq keçirilməsi yalnız bir məqsədə - hərbi qulluqçuların peşə vərdişlərinin təkmilləşdirilməsinə xidmət edir”.

Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının yüksəldilməsində xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Rəvan Abışovun əməyi danılmazdır.

Dəstənin nümunəvi xidmət edən hərbi qulluqçularından baş leytenant Elxan Ələkbərov, çavuşlar Tahir Babayev, Racib Mahmudov və Firuz Qayımbəyov üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirir, döyüş təcrübələrini hərbi qulluqçularla bölüşürlər.

**kapitan Şahin Cəfərzadə**

# PEŞƏKAR UÇUŞ HEYƏTİ QARŞIYA QOYULAN TAPŞIRIQLARIN ÖHDƏSİNDƏN UĞURLA GƏLİR

“Əsgər” qəzetinin ötən saylarında Daxili Qoşunların 17077 saylı hərbi hissəsinin nümunəvi hərbi qulluqçuları barədə materiallar dərc edildi. Budəfəki sayımızda isə hərbi hissənin peşəkarlığı ilə fərqlənən helikopter manqasının hərbi qulluqçularının xidməti fəaliyyəti haqqında məlumat verəcəyik.

Hərbi hissənin helikopter manqasının baş pilotu mayor Taleh Abdullayev iş qabiliyyətinə, icraçılığına və döyüş hazırlığını qoruyub saxlamasına görə seçilən zabitlərdəndir. 2024-cü ilin iyun ayından hərbi hissədə xidmət edir, öz manqasında uçuş heyətinin tam və vaxtında hazırlanmasına, uçuşların təhlükəsizliyinə və tapşırıqların uğurla yerinə yetirilməsinə cavabdehdir.



Mayor T.Abdullayevlə söhbət zamanı ilk olaraq qeyd etdi ki, helikopterlərlə paraşütçü desantların, yük və xüsusi yüklərin, yaralıların daşınması və aidiyyəti üzrə çatdırılması, axtarış-xilasetmə və kəşfiyyat işlərinin aparılması həyata keçirilir. Uçuşdan iki saat əvvəl uçuşa hazırlıq vəziyyəti yoxlanılır. Texniki heyət tərəfindən helikopterlərə baxış keçirilir, müvafiq texniki işlər yerinə yetirilir. Bu zaman nasazlıqlar aşkar edilərsə, dərhal aradan qaldırılır. O, həmçinin əlavə etdi ki, uçuşun həyata keçirildiyi gün heyət üzvlərinin qarşısına qoyulan müvafiq tapşırıq xəritə üzərində müzakirə olunur, marşrutun uzunluğu, məsafəyə uyğun olaraq yanacaq və yükün çəkisi hesablanır, ehtiyat aerodromlar müəyyən edilir. Baş pilot onu da vurğuladı ki, helikopter 4 tona qədər yük, 24 nəfər desant və ya 12 nəfər yaralı daşıya bilər. Helikopterin öz çəkisi ilə birlikdə ümumi yükün çəkisi 13 tondan artıq ola bilməz.

Helikopter manqasının şturmanı mayor Kənan Nəsibov da təcrübəli mütəxəssis kimi vəzifələrini bilir, məsuliyyətini dərindən dərk edərək, peşə hazırlığını artırmaq üçün hər zaman üzərində əzmlə çalışır. O, uçuşların şturman təminatına, manqanın uçuş heyətinin şturman hazırlığının keyfiyyətinə cavabdehlik daşıyır. Peşəsinə olan rəğbəti, müsbət fərdi keyfiyyətləri ilə fərqlənir. Mayor K.Nəsibov şturman hesablamalarını tez və dəqiq yerinə yetirir, uçuşun proqramlaşdırılması üçün ilkin məlumatları təyin edir, uyğun uçuş proqramlarını hazırlayaraq, idarəetmə mərkəzindən verilən komandaları vaxtında və dəqiqliklə icra edir.

Borttexnik-atıcı kapitan Rəşad Hüseynov isə helikopterin və digər avadanlıqların sazlığına, uçuşlara tam keyfiyyətlə hazırlanmasına nəzarət edir. Bacarıqlı zabit, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 14.01.2025 12:53 Page 1



# 20 YANVAR - ÜMUMXALQ HÜZN GÜNÜ




1990-cı il yanvar faciəsinə aparan yol azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyasının, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinin geniş vüsət aldığı 1987-ci ildən başlayıb. Artan xətt üzrə davam edən gərginliyin qarşısını almaq əvəzinə, Sovet rəhbərliyi Azərbaycan xalqına qarşı dəhşətli cinayət törədib.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizliyi Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və Daxili Qoşunlarının iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilib. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaralayıblar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə bir neçə gün ərzində Bakı şəhərində 21 nəfər öldürülüb. Fövqəladə vəziyyətin elan olunmadığı rayon və şəhərlərdə - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilib.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarda 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili tibbi yardım işçiləri və milis nəfərləri olublar.



Qoşunların qanunsuz yeridilməsi həm də dinc əhali arasında kütləvi həbslərlə müşayiət olunub. Əməliyyatların gedişi boyunca paytaxt Bakı və respublikanın digər şəhər və rayonlarında 841 nəfər qanunsuz həbs edilib, onlardan 112-si SSRİ-nin müxtəlif şəhərlərindəki həbsxanalara göndərilib. Hərbi qulluqçular tərəfindən 200 evə, 80 avtomobilə, o cümlədən təcili tibbi yardım maşınlarına atəş açılıb, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət və şəxsi təyinatlı əmlaka ciddi zərər vurulub.

Sovet qoşunlarının hərəkətlərində 1945-1946-cı illərdə keçirilmiş və tarixə Nürnberq prosesi kimi düşmüş beynəlxalq tribunalda pislənilən bütün əlamətlər müşahidə edilib.

1990-cı il yanvar qurbanları simvolik olaraq "20 Yanvar şəhidi" adlanırlar. Ümumilikdə Azərbaycanın 150 nəfər "20 Yanvar şəhidi" vardır.

Faciədən dərhal sonra – 1990-cı il yanvarın 21-də Ümummilli Lider Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirib, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirib və həmin əməliyyata rəhbərlik edənləri ifşa edib.

Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi.

1994-cü il martın 29-da Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı - Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilib.

Azərbaycan xalqı 20 Yanvar şəhidlərinin xatirəsini əziz tutur.

Hər il yanvarın 20-də Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir.

**President.az saytının materialları əsasında hazırlanıb.**

# 29 YANVAR AZƏRBAYCAN RESPUBLİKASINDA BƏLƏDİYYƏ SEÇKİLƏRİ GÜNÜDÜR

**Azərbaycan Respublikasında növbəti - sayca 6-cı bələdiyyə seçkiləri cari ilin 29 yanvar tarixinə təyin olunub. Ölkəmizdə ilk bələdiyyə seçkiləri 12 dekabr 1999-cu ildə keçirilib.**

**Azərbaycan mütərəqqi seçki təcrübəsinə malik ölkədir. Seçkilərin azad və şəffaf keçirilməsi məqsədilə dövlətimiz tərəfindən bütün lazımi tədbirlər görülür.**

**Seçkilərdə iştirak etmək hər bir vətəndaşın konstitusion hüququdur.**



Hərbi qulluqçular da bu prosesdə fəal iştirak edərək vətəndaş məsuliyyəti nümayiş etdirirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyun 2013-cü il tarixli müvafiq Qərarı ilə təsdiq edilmiş "Hərbi qulluqçuların seçkilərdə (referendumda) iştirakına dair Təlimat"da qeyd olunduğu kimi, Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) hərbi qulluqçuların iştirakı və hərbi hissələrdə seçki məntəqələrinin yaradılması, həmin məntəqələrin seçki komissiyalarının fəaliyyəti qaydaları Azərbaycan Respublikası Konstitusiyasının 56-cı, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 12.1-ci, 13.1-ci, 14.2.1-ci, 35.5-ci, 36.7-ci, 46.6-cı, 46.9-cu, 47.3-cü, 104-cü maddələri, habelə "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsi və bu təlimatla tənzimlənir.

Təlimatın 1.2-ci maddəsində hərbi qulluqçuların Azərbaycan Respublikasının digər vətəndaşları kimi aktiv və passiv seçki hüququnun olduğu, eləcə də bu hüquqları həyata keçirərkən onlarla eyni hüquq və vəzifələrə malik olmaları göstərilib.

Həmçinin təlimatın 3-cü maddəsində yaşayış məntəqələrindən kənarda yerləşən hərbi hissələrdə seçki məntəqələrinin yaradılması barədə tələblər də öz əksini tapıb.

Bundan əlavə, təlimatın 4-cü maddəsində hərbi hissələrin ərazilərində seçki məntəqələrinin yaradılması və səsvermənin təşkilinə dair tələblər maddənin müvafiq bəndlərinə uyğun qeyd olunub.

**Məlumat üçün qeyd edək ki, yanvarın 29-da keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında da müvafiq qanunvericiliyin tələblərinə uyğun tədbirlər planlaşdırılaraq, icrası nəzarətə götürülüb. Belə ki, Azərbaycan Respublikasının daxili işlər nazirinin təsdiq etdiyi 10 dekabr 2024-cü il tarixli "2025-ci il yanvar ayının 29-da keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar asayişin mühafizəsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə dair tədbirlər planı"nda, həmçinin xidmətin aparılmasının gücləndirilmiş variantda təşkil edilməsi ilə bağlı, eləcə də seçkilərə hazırlıq və keçirilməsi dövrü üçün daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı və daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi tərəfindən təsdiq olunmuş müvafiq planlarda aidiyyəti idarə, şöbə və xidmətlər, o cümlədən vəzifəli şəxslər tərəfindən həyata keçiriləcək vəzifələr müəyyən edilib.**

**Qeyd edək ki, seçkilərə hazırlıq dövründə və keçirilməsi zamanı Daxili Qoşunların Baş İdarəsində, Hərbi İnstitutda və hərbi hissələrdə döyüş hazırlığının, sayıqlığın artırılması, yüksək intizamın və ictimai qaydanın qorunmasının təmin edilməsi, xidmətin təşkilinə nəzarətin gücləndirilməsi, tərbiyə işinin mövcud üsullarından istifadə etməklə, hərbi qulluqçularla müvafiq plana uyğun mövzular üzrə məşğələlərin keçirilməsi də məhz bu qəbildəndir.**

**Mətbuat xidməti**

*Qazilərimiz*

# ANTİTERROR ƏMƏLİYYATINDA CƏSURLUQLA VURUŞARAQ AĞIR YARALANAN DÖYÜŞÇÜ

Azərbaycan öz torpaqlarının Ermənistan tərəfindən işğalına son qoyan, erməni faşizmini və separatizmini darmadağın edən, tarixi ədalətin bərpasına nail olan qalib ölkədir. 44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri dövlətimizin və xalqımızın yenilməz iradəsini, habelə gücünü nümayiş etdirib. Qeyrətli oğullarımız Vətən torpağı uğrunda canlarını qurban veriblər və sağlamlıqlarını itiriblər. Şəhidlər və qazilər xalqımızın başını ucaldıblar. Bu gün bizim üçün işğal, məcburi köçkünlük gerçəkliyi arxada qalıb. Vəhşi xislətli düşmənin bizə qarşı törətdiklərinin döyüş meydanında qisasını almışıq.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti həm Vətən müharibəsində, həm də antiterror əməliyyatında hərbi zəfərin qazanılmasına layiqli töhfəsini verib. Antiterror əməliyyatında şərəfli döyüş yolu keçən hərbi qulluqçularımızdan biri də istefada olan əsgər Musayev Elgün Zakir oğludur.

O, 1994-cü il mayın 10-da Goranboy rayonunun Nadirkənd kəndində doğulub. Zakir Musayev və Rəfiqə Yusifovanın böyük övladıdır, özündən iki yaş kiçik Aygün adlı bacısı var. Atası alüminium zavodunda fəhlə, anası isə orta məktəbdə ibtidai sinif müəllimi işləyirlər. Zəhmətkeş, adət-ənənələrimizə ehtiram göstərən ailədə böyüyən Elgün vətənpərvər ruhda tərbiyə olunub.

Nadirkənddə yerləşən şəhid Hüseyn Abdiyev adına tam orta məktəbin məzunudur. Orta məktəbdə Azərbaycan dili, tarix, coğrafiya, çağırışaqədərki hazırlıq, fiziki tərbiyə fənlərinə daha çox maraq göstərib. Onun mənəvi dəyərlərimizə bağlı, ləyaqətli gənc kimi formalaşmasında müəllimləri öz əməklərini əsirgəməyiblər. Şagird ikən gələcəkdə hərbçi olmağı arzulayıb.

Fiziki hazırlığını möhkəmləndirən, sağlam həyat tərzini üstün tutan, idmana həvəslə yanaşan Elgün zəhmətə qatlaşaraq ev təsərrüfatında çalışıb, eləcə də hərbi xidmətə gedənədək tikintidə fəhlə işləyib və sürücülük kursunu bitirib.

2012-ci ilin iyul ayında Elgün müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin elektrotexniki təminat bölüyündə sürücü əsgər olaraq xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirib.

Müdafiə nazirinin 21 iyun 2013-cü il tarixli müvafiq əmri ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı ilə təltif edilib. 2014-cü ilin yanvar ayında o, hərbi xidmətdən ehtiyata buraxılıb.

Ordu sıralarından qayıtdıqdan qısa müddət sonra Elgün hərbçi peşəsinə yiyələnməyi qərarlaşdırıb. DİN-in Daxili Qoşunlarının komandanlığına müraciəti müsbət cavablandırılıb. 2014-cü ilin aprel ayından etibarən Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı vəzifəsində xidmət edərək komandanlığın etimadını doğruldub. Silahdaşlarının hörmətini qazanıb. Nümunəvi xidmətinə görə bir sıra mükafatlara layiq görülüb. Komandirləri tərəfindən müsbət keyfiyyətləri şəxsi heyətə örnək göstərilib. Funksional vəzifələrinin və qarşıya qoyulan tapşırıqların icrasında əzmkarlığı ilə fərqlənib.

2015-ci ildə ölkəmizdə keçirilmiş Birinci Avropa Oyunları zamanı Mingəçevir şəhərində təşkil edilən avarçəkmə yarışının təhlükəsizliyinin qorunması üzrə xidmətdə olub. Sayıqlıq nümayiş etdirib.

Koronavirus pandemiyası dövründə Gəncə şəhərində, Şəmkir və Göygöl rayonlarında karantin rejiminin təmin edilməsi üzrə xidmətə çıxıb. Həvalə olunan vəzifələrin öhdəsindən bacarıqla gəlib.



44 günlük Vətən müharibəsi ilə əlaqədar Gəncə şəhərində, Daşkəsən, Gədəbəy və Göygöl rayonlarında komendant postlarında xidmətə cəlb olunaraq vətəndaşlarımızın asayişi, əmin-amanlığı keşiyində qətiyyətlə dayanıb. Həmin vaxt Gəncə şəhəri erməni ordusu tərəfindən raketlərlə atəşə tutulub, bunun nəticəsində çoxlu sayda sakin həlak olub və xəsarət alıb. Hərbi qulluqçularımızın və ailələrinin də həyatına təhlükə yaranıb. Şahidi olduqları erməni vəhşiliyi Elgünü və silahdaşlarını həm sarsıdıb, həm də dərindən hiddətləndirərək qisas hisslərini gücləndirib. Onlar döyüş əmrinin veriləcəyi günü səbirsizliklə gözləyiblər. Ancaq belə bir zərurət yaranmayıb. Müharibədə qələbə xəbərini Elgün də böyük ruh yüksəkliyi ilə qarşılayıb.

İşğaldan azad olunan Şuşa və Laçın şəhərlərindəki postlarda, habelə yağı tapdağından qurtarılan müxtəlif rayonlarda təhlükəsizliyin qorunması üzrə xidmətdə olub, verilən tapşırıqların icrasında peşəkarlıq göstərib.

17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsinin komandirinin müavini kapitan Eltun Orucov, xüsusi vasitələrin tətbiqi qrupunun komandiri baş leytenant Tərlan İsayev, qazilər, ehtiyatda olan gizir Səxavət Zeynalov, istefada olan çavuş Babahəsən Kərimov, ehtiyatda olan kiçik çavuş Bakir Paşayev mənə Elgünün xidməti fəaliyyəti və döyüş yolu haqqında danışdılar. Onların sözlərinə görə, o, vətənpərvər, peşəsinə qəlbən bağlı, yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik, intizamlı, məsuliyyətli, təmkinli, təlimlərdə və məşğələlərdə fəal iştirak edən, heç bir çətinlik qarşısında ruhdan düşməyən, bacarıqlı hərbi qulluqçu olub.

2023-cü il sentyabrın 19-dan 20-dək Qarabağ bölgəsində erməni işğalçılarına qarşı keçirilmiş antiterror əməliyyatında Elgün dəstənin digər hərbi qulluqçuları ilə birlikdə iştirak edib. Dəstə komandiri polkovnik-leytenant Rəşad Hüseynovun rəhbərliyi altında şəxsi heyət döyüş tapşırığını yerinə yetirmək üçün Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndinə (hazırda bu kənd Ağdərə rayonuna daxildir) göndərilib. Avtomobillərlə hərəkət zamanı yolda düşmən pusqusuna düşüblər. Hücum dəf edilərək ermənilərin atəş nöqtələri susdurulub. Elgün özünü itirmədən mətinliklə vuruşub. İlk döyüşdə dəstənin bir neçə nəfər hərbi qulluqçusu yaralanıb. Onlara ilk tibbi yardım göstərilib və arxaya çıxarılıblar. Sonra ara məsafəsi saxlamaqla, piyada şəklində hərəkəti davam etdirmək qərara alınıb. Vəngli kəndi istiqamətində müəyyən qədər irəliləyərkən növbəti hücuma məruz qalıblar, ermənilər yolun kənarlarında mövqelənərək pusqu qurublar. Düşmən hərbçilərimizə müxtəlif çaplı silahlardan atəş açıb, üzərilərinə qumbaralar atıb. Hərbi qulluqçularımız müdafiə olunaraq igidliklə döyüşüblər. İşğalçılar itki verərək geri çəkiliblər. İkinci pusqu zamanı 11 nəfər döyüşçümüz ərazidəcə, dəstə komandiri polkovnik-leytenant R.Hüseynov isə ağır yaralanaraq növbəti gün hərbi qospitalda şəhid olub. Şəhadətə ucalan silahdaşlarının yanında yaralanan döyüşçülər Babahəsən, Bakir və Elgündür. Hər iki ayağını güllələr və qəlpələrin zədələdiyi Elgün həm də kəllə-beyin travması alıb. Yaralılar Kəlbəcərdəki hərbi qospitala təxliyyə olunublar. Gəncə şəhərindəki Abbas Səhhət adına xəstəxanada və Daxili Qoşunların Hərbi Qospitalında Elgünün üzərində cərrahiyyə əməliyyatları aparılıb. Bədənindəki güllələr çıxarılıb, ancaq çoxsaylı kiçik ölçülü qəlpələr qalıb. Aldığı yaralar orqanizmində ağır fəsadlar törədib.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq Sərəncamı ilə əsgər E.Musayev "İgidliyə görə" medalı ilə təltif edilib.

2024-cü ilin oktyabr ayında Elgün səhhəti ilə əlaqədar Daxili Qoşunların sıralarından istefaya buraxılıb. Daxili Qoşunların Baş İdarəsinin Tibb xidmətinin hərbi-həkim komissiyası tərəfindən verilən xəstəlik haqqında şəhadətnamədə onun həm sülh, həm də müharibə dövründə hərbi xidmətə yararsız olduğu barədə qeydlər öz əksini tapıb.

Qeyd edim ki, Elgün hazırda müalicəsini davam etdirir, sağlamlıq durumu ilə bağlı işləmir.

Elgünün bibisi oğlu Telman Abışov Vətən müharibəsi zamanı Şuşa uğrunda döyüşdə şəhidlik zirvəsinə ucalıb. Atasının əmisi oğlu Rəşid Əliyev Birinci Qarabağ müharibəsinin iştirakçısıdır, 2-ci qrup əlildir.

Xoşbəxt bir ailə quran Elgünün Aylin və Emilya adlı qızları var. Döyüş sınağından ailəsinin yanına sağ və alnıaçıq qayıtması doğmalarının həyatında ən unudulmaz sevincli məqam olub.

Bu gün Elgün şərəfli qazi adını daşıyır. Vətən üçün etdiyi fədakarlıq layiqli örnəkdir.

**Yalçın Abbasov**

4_Layout 1 15.01.2025 9:48 Page 1



# VƏZİFƏLƏRİNİ UĞURLA YERİNƏ YETİRƏN AYRI YERLƏŞƏN PATRUL TABORU

17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taboru ilə ilk tanışlığımız zamanı hərbi qulluqçuların istifadəsinə verilən kazarmada, eləcə də ərazidə göz oxşayan səliqə-sahman diqqətimizi cəlb etdi.

Tabor komandiri mayor Ülvi Hüseynli tabeliyində olan şəxsi heyətin qarşısına ictimai qaydanın və təhlükəsizliyin təmin olunması üzrə mühüm tapşırıqların qoyulduğunu bildirdi. Qeyd etdi ki, xüsusi tədbirlərin keçirilməsi zamanı bölmələrin dəqiq, mütəşəkkil və birgə fəaliyyətinə





nail olmaq, idarəetmənin vəziyyətinin yaxşılaşdırılması sahəsində kəsərli tədbirlər həyata keçirmək, eləcə də zərurət olduqda Vətənin müdafiəsi üzrə döyüş əməliyyatlarında iştirak etmək başlıca vəzifələridir.

Habelə şəxsi heyət arasında nizam-intizamı möhkəmləndirmək, gündəlik fəaliyyətdə qanunçuluğa riayət olunmasını, təhlükəsizlik qaydalarına əməl edilməsini tələb etmək də xidmətin əsasıdır.

Mayor Ü.Hüseynli gündəlik fəaliyyət haqqında məlumat verərkən söylədi ki, bölük növbətçisi və bölüyün gün növbətçisi, nəzarət-buraxılış məntəqəsi növbətçisinin köməkçisi, park, eləcə də əsgər yeməkxanası naryadlarına patrul və təminat bölüklərinin, qarovul xidmətinə isə komendant taqımının şəxsi heyəti cəlb olunur. Hər bir xidmətin təşkilinin aidiyyəti zabitlər tərəfindən diqqət mərkəzində saxlanıldığını deyən tabor komandiri şəxsi heyətin qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəldiyini nəzərimizə çatdırdı.



Tabor komandiri döyüş hazırlığının yüksəldilməsi məqsədilə hərbi qulluqçuların təliminə ciddi diqqət yetirildiyini dedi. O, tabor komandirinin müavini - qərargah rəisi mayor Namir Qurbanovun şəxsi heyətlə keçirilən məşğələlərə şəxsən nəzarət etdiyini də vurğuladı.

Ümumiyyətlə, bölmələrin yüksək döyüş hazırlığına malik olmasında möhkəm hərbi intizamın və kollektivdə qarşılıqlı sağlam münasibətlərin mühüm rol oynadığını nəzərimizə çatdıran mayor Ü.Hüseynli bu işdə tabor komandirinin tərbiyə işləri üzrə müavini mayor Anar Mustafayevin də əməyini yüksək qiymətləndirdi.

Mayor A.Mustafayev taborda keçirilən söhbət, mühazirə, viktorina, disput, mövzu axşamı və digər çoxşaxəli tərbiyə işi tədbirlərinin şəxsi heyətin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsinə, hərbi intizamının möhkəmləndirilməsinə böyük təkan verdiyini diqqətə çatdırdı.

Belə bir mühitdə sözsüz ki, sağlam düşüncəli, hərtərəfli hazırlığa malik hərbi qulluqçular formalaşır.

**kapitan Şahin Cəfərzadə**

# DÖYÜŞ YOLU KEÇƏN BAŞ SÜRÜCÜ

Daxili Qoşunların sıralarında xidmət edən baş çavuş Orxan Məmmədov vəzifələrini məsuliyyətlə və vicdanla yerinə yetirir.

O, 1989-cu ilin avqust ayının 28-də Xaçmaz rayonunun Hülünlü kəndində doğulub. Orta təhsilini 1995-2006-cı illərdə doğma kəndindəki tam orta məktəbdə alıb. 2007-ci ilin oktyabr ayından 2009-cu ilin aprel ayınadək Müdafiə Nazirliyinin Bakı şəhərində yerləşən “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2011-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin avtomobil və zirehli texnika bölməsinin təmir taqımının texniki, 2014-cü ildə isə xüsusi təyinatlı dəstənin sürücüsü vəzifəsinə təyin edilib. 2020-ci ilin may ayından 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin avtomobil yarımqrupunun komandiri-baş sürücüsü vəzifəsində xidmətini ləyaqətlə davam etdirir. Funksional vəzifə borclarının öhdəsindən hər zaman layiqincə gəlib, komandanlığın etimadını doğruldub, silahdaşlarının hörmətini qazanıb.



Baş çavuş O.Məmmədov həm də Vətən müharibəsi iştirakçısıdır. Belə ki, o, 2020-ci ilin oktyabr ayından Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Füzuli rayonu istiqamətində aparılan döyüş əməliyyatlarında iştirak edib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə “Füzulinin azad olunmasına görə”, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamına əsasən, “Vətən müharibəsi iştirakçısı”, daxili işlər nazirinin 29 iyun 2022-ci il tarixli əmri ilə “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli medalları ilə təltif olunub.

Peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi yönündə daim öz üzərində çalışır, verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirmək üçün əlindən gələni əsirgəmir.

**kapitan Şahin Cəfərzadə**

*Həkim məsləhəti*

# KƏSKİN RESPİRATOR XƏSTƏLİKLƏR

Kəskin respirator xəstəliklər qrupuna qrip, paraqrip, adenovirus, rinovirus və digər infeksiyalar aiddir. Bu xəstəliklər insan patologiyasında mühüm yer tutur.



Statistik məlumatlara görə, hər il qrip və digər kəskin respirator xəstəliklərə milyonlarla insan yoluxur. Antroponoz xəstəlikdir, xəstələnmə halı yalnız insanlarda təsadüf olunur.

Qrip intoksikasiya və yuxarı tənəffüs yollarının selikli qişalarının zədələnməsi ilə xarakterizə olunan kəskin virus mənşəli infeksion xəstəlikdir. Qrip epidemiyaları haqqında məlumat uzaq keçmişə aiddir. 19-cu əsrin axırlarından başlayaraq bəşəriyyət qripin 4 ağır pandemiyasını keçib və xəstəlik milyonlarla insanın ölümünə səbəb olub. Alimlər tərəfindən qripin virus mənşəli olması 1933-cü ildə müəyyənləşdirilib.

İnfeksiya mənbəyi xəstə insandır. Maksimal yoluxuculuq xəstəliyin ilk günləri müşahidə olunur. İnfeksiya hava-damcı yolu ilə yayılır. Öskürmə və asqırma zamanı viruslar selik damcıları ilə xarici mühitə ifraz olunur. Bütün yaş qrupları bu xəstəliyə həssasdır. Kəskin respirator xəstəliklərdə inkubasiya dövrü 1-3 gündür. Kliniki simptomlar: zökəm, başağrısı, üşütmə, hərarətin 38,5 - 40 dərəcəyə qədər yüksəlməsi, zəiflik, əzginlik, əzələlərdə və oynaqlarda ağrılar.

Xəstəliyin gedişi zamanı bəzən quru öskürək yaş öskürəklə əvəz olunur. Qrip xəstəliyi zamanı ikincili bakterial floranın qoşulması bir çox halda pnevmoniya, həmçinin sinir sisteminin zədələnməsi (meninqoensefalit) və polinevrit kimi ağırlaşmalara gətirib çıxarır.



Şəxsi heyət arasında qrip və digər kəskin respirator xəstəliklərin qarşısının alınması məqsədilə aparılan əsas profilaktik və əks-epidemik tədbirlər aşağıdakılardır:

1. Qrip və kəskin respirator xəstəliklərə yoluxmuş şəxslərin vaxtında aşkarlanması, təcrid edilməsi və onlar üzərində tibbi nəzarətin gücləndirilməsi.

2. Səhər və axşam şəxsi heyət arasında termometriya işinin həyata keçirilməsi.

3. Şəxsi heyətin məskunlaşma yerlərində, kazarmalarda, iş otaqlarında normal şəraitin yaradılması:

- otaqların havasının mütəmadi qaydada dəyişdirilməsi və döşəmənin nəm üsulla silinməsi;
- otaqlarda temperatur rejiminin normada saxlanılması;
- profilaktik dezinfeksiya tədbirlərinin aparılması.

4. Məzuniyyətdən, ezamiyyətdən qayıdan hərbi qulluqçular üzərində profilaktik tibbi müayinələrin gücləndirilməsi.

5. Şəxsi heyət arasında sanitar-maarifləndirmə işinin gücləndirilməsi.

6. Şəxsi heyətlə keçirilən kütləvi tədbirlərin mümkün qədər məhdudlaşdırılması.

7. Şəxsi heyətin qidalanmasına və isti mayelərlə (çay, kompot və s.) təmin olunmasına nəzarətin gücləndirilməsi.

Qeyd etmək lazımdır ki, şəxsi heyətin peşə fəaliyyətinin və döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması üçün profilaktik və əks-epidemik tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

**Tibb xidməti**

*NÜMUNƏVİ XİDMƏT*

# MƏSULİYYƏTLİ, BACARIQLI QADIN HƏRBİ QULLUQÇUMUZ

25031 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularından olan baş çavuş Turanə Atamalıyeva uzun müddətdir layiqincə xidmət edir. O, 1986-cı il avqustun 24-də Bakı şəhərində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Bakı şəhəri Mikayıl Müşfiq adına 18 saylı tam orta məktəbdə alıb.



Hələ məktəb illərindən hərbi formaya rəğbəti olan Turanə müstəqil həyata qədəm qoyduqdan sonra ömrünü hərbi xidmətə həsr etməyə qərar verir. 2009-cu ildə Daxili Qoşunların komandanlığına xidmətə qəbulla bağlı etdiyi müraciət uğurlu olur. O, 25031 saylı hərbi hissənin maddi-texniki təminat xidmətlərində kargüzar (əşya xidməti üzrə) vəzifəsinə təyin edilir. Hazırda hərbi hissənin qərargahının kargüzarı (qeyri-məxfi kargüzarlıq üzrə) vəzifəsindədir.

Nümunəvi xidməti, bilik və bacarığı ilə fərqlənən qadın hərbi qulluqçumuz hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Hərbi hissə komandirinin 1-ci müavini-qərargah rəisi polkovnik-leytenant Akif Nəhmədov onun haqqında danışarkən bildirdi ki, baş çavuş Turanə Atamalıyeva xidməti vəzifə borclarının icrasına ləyaqətlə yanaşaraq, sənədlərin qəbulu, dövriyyəsi və qorunub saxlanılmasına hər zaman ciddi nəzarət edir. Həmçinin xidmətə daxil olan sənədlərin icrası ilə bağlı müvafiq direktivin və digər rəhbəredici sənədlərin tələblərini bilir. İntizamı, bilik və bacarığı ilə digər qadın hərbi qulluqçulara örnəkdir.

Biz də öz növbəmizdə, bacarıqlı, peşəkar qadın hərbi qulluqçumuza şərəfli xidmətində uğurlar arzulayırıq.

**kapitan Nigar Ağayeva**

# İNTİZAMLI VƏ SAVADLI KURSANT

Hərbi İnstitutun nümunəvi, intizamlı kursantlarından olan Nihad Zəkiyev 2007-ci ilin yanvar ayının 11-də Xaçmaz rayonunun Ağyazı-Buduq kəndində anadan olub. 7-ci sinfədək şəhid Əlibala Zəkəriyyayev adına Ağyazı-Buduq kənd orta məktəbində oxuyub. 2024-cü ildə orta təhsilini Quba şəhər fizika-riyaziyyat və informatika təmayüllü liseydə bitirib. Həmin il Daxili Qoşunların Hərbi İnstitutuna qəbul olunub. Uşaq yaşlarından idmanın kikboksinq və qol güləşi növləri ilə məşğul olub, klublararası yarışlarda uğurla iştirak edib.




Uşaqlıqdan hərbi sahəyə böyük marağı olan Nihad hərbçi peşəsinin bütün sirlərini dərindən öyrənir, biliklərini artırmaq üçün hər zaman əzmlə çalışır.

Kursant N.Zəkiyev bildirdi ki, Hərbi İnstitutda kursantların nəzəri biliklərinin möhkəmləndirilməsi, praktiki vərdişlərinin təkmilləşdirilməsi, təhkim olunmuş silah və texnikaların istifadə qaydalarının mükəmməl mənimsənilməsini təmin etmək məqsədilə nəzəri məşğələlərlə yanaşı, praktiki təlimlər də keçirilir. Kursantlar təlimlərdə bölmə komandiri, eləcə də təlimin məqsədinə uyğun olaraq digər vəzifələri icra edirlər.

İnstitutda tədris olunan fənləri böyük maraqla mənimsəyən kursantımız tədrisin təcrübəli müəllim heyəti tərəfindən aparıldığını diqqətə çatdırdı.

Ən böyük arzusu Daxili Qoşunların zabiti kimi Vətənə şərəflə xidmət etmək olan kursant N.Zəkiyevə uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ XƏBƏRLƏR

*- YENİLİKLƏR -*

## İrlandiya HHQ H145M helikopterləri ilə döyüş gücünü artırır

“Airbus Helicopters” şirkəti (“Airbus” şirkətinin bir hissəsi) İrlandiya Müdafiə Nazirliyi ilə dörd ədəd H145M helikopterinin tədarükünə dair müqavilə imzalayıb. “Poliqon” “Airbus”a istinadən xəbər verir ki, sifariş edilən H145M helikopterləri İrlandiya Hərbi Hava Qüvvələrinin (HHQ) əməliyyat imkanlarını genişləndirmək üçün istifadə olunacaq.



H145M yüngül döyüş helikopteri pulemyot və raketlər daxil olmaqla, müxtəlif silah sistemlərini daşıya bilir.

# Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Elşən Əliyevə **arvadının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Hərbi İnstitutunun rəhbərliyi mayor Samir Hüseynova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17074 saylı hərbi hissənin komandanlığı mayor Fəqan Məlikova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin komandanlığı mayor Rakif Ramazanova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin komandanlığı mayor Emin Məmmədova **bacısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Təlim Mərkəzinin komandanlığı baş gizir Nurlan Rzayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin komandanlığı gizir Gülnar Mahmudovaya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin komandanlığı baş çavuş Pərvin Pənahova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin komandanlığı MAXE əsgər Ramin Məmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000